**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
-------------------------------------------------------
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
==================================================

*Əlyazması hüququnda*

**Hüseynov Hüseyn Əmrah oğlu**

# SOSİAL TƏMİNAT SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**5308.01-“Ümumi iqtisadiyyat”**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilib.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Cəmilə Bayramalı qızı Namazova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Fərqanə Qəzənfər qızı Musayeva**

**Aparıcı təşkilat:** **Azərbaycan Texniki Universiteti**

Müdafiə 26 noyabr 2016-cı il saat $12^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 25 oktyabr 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycanda da sosial problemlərin həlli dövlətin sosial iqtisadi inkişafının ana xəttini təşkil edir. Lakin, ölkənin daim qarşılaşdığı ciddi sosial-humanitar problemlər, iqtisadiyyatda baş verən transformasiyalar əhalinin həyat səviyyəsinin tələb olunan normalarda ödənilməsində ciddi çətinliklər yaratmışdır. Müstəqilliyin ilk illərində Respublikamızda siyasi vəziyyətin, o cümlədən iqtisadi təhlükəsizliyin təmin edilməməsi insanların sosial təminat və ümumilikdə sosial müdafiə sisteminə çıxışını tamamilə məhdudlaşdırmışdı. Müharibə şəraiti və qeyri-sabit siyasi durum işsizliyin və yoxsulluğun sürətlə artmasına səbəb olmuş, vətəndaşların minimum yaşayış standartlarına əlyetərliyini azaltmış və həssas qrupların yoxsulluq riskini yüksəltmişdir. Bu baxımdan 1994-2003-cü illərdə dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri əhalinin maddi-rifah səviyyəsinin artırılması, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin təmin edilməsi, yoxsulluq və işsizliyin minimum səviyyəyə endirilməsi, makroiqtisadi sabitliyin qorunması və dayanıqlı iqtisadiyyatın formalaşdırılmasından ibarət olmuşdur. Məhz buna görə də sosial təminat sisteminin beynəlxalq standartlara uyğun təşkil edilməsi və müasir çağırışlara cavab verən sistemin formalaşdırılması üçün Azərbaycan dövləti ötən dövr ərzində xalqın firavan gələcəyini təmin edə bilən sabitlik və möhkəm iqtisadi baza yaratmağa çalışmışdır. Bu müddət ərzində yoxsulluğun azaldılması və davamlı inkişaf ölkə üçün aparıcı prinsiplərdən biri olmuşdur. 2000-ci ildən isə ölkəmiz BMT tərəfindən irəli sürülmüş Minilliyin inkişafı bəyannaməsinə qoşulmuşdur ki, bu da ölkədə yoxsulluğun minimuma endirilməsi və əhalinin təminatı zəif olan təbəqəsinin daim diqqət mərkəzində saxlanılmasını aktuallaşdırmışdır.

Lakin həmin dövrdə maliyyə imkanlarının məhdudluğu, adekvat sosial təminat proqramlarının və qanunvericilik aktlarının olmaması vətəndaşların layiqli həyat şəraiti ilə təmin edilməsi üçün təminat sisteminin yaradılması məsələsini meydana çıxarırdı.

2004-cü ildən başlayaraq uğurla icra olunan sosial-iqtisadi inkişaf proqramları Respublikamızın makroiqtisadi sabitliyinin qorunmasına, iqtisadi potensialın artmasına, infrastruktur təminatının, biznes və investisiya mühitinin yaxşılaşmasına səbəb olmuşdur. Eyni zamanda vətəndaşların rifah halını yaxşılaşdırılmaq, iqtisadi və sosial həyatda

müşahidə olunan müsbət meyilləri daha da möhkəmləndirmək, yoxsulluğun səviyyəsinin azaldılması sahəsində müvafiq tədbirlərin həyata keçirilməsini davam etdirmək məqsədilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" qəbul edilmiş və bu proqramlarla paralel sosial təminata dair qanunvericilik aktları təkmilləşdirilmiş və pensiya, sosial müavinətlər, məşğulluq və s. məsələləri əhatə edən proqramlar icra olunmuşdur. Bununla yanaşı, respublikamız sosial təminat sahəsində bir sıra beynəlxalq konvensiyaların müxtəlif maddələrini ratifikasiya etmiş və bu maddələrin ödənilməsi üçün yeni öhdəliklər götürmüşdür. Lakin təminat sisteminin ötən dövr ərzində ilkin formasının yaradılmasına baxmayaraq, sosial təminatın təkmilləşdirilməsi və müasir çağırışlara cavab verən sistemin qurulması zərurəti hələ də qalmaqdadır. Belə ki, hazırda tətbiq edilən müavinət sistemində müəyyən səmərəsiz müavinətlərin qalması və unifikasiyaya ehtiyacın artması, yardım sisteminin müasirləşdirilməsi və şaxələndirilməsi, pensiya sisteminin maliyyə dayanıqlığı və sığorta prinsipləri əsasında fəaliyyətinin qurulması və bütün bunların nəticəsində insanların layiqli həyat şəraiti ilə təmin edilməsi və onların minimum yaşayış standartlarına çıxışı və potensial yoxsulluq və işsizlikdən sığortalanmaları sosial təminat sisteminin daha təkmil və səmərəli təşkili zərurətini yaradır.

Bu gün dünya ölkələrinin üzləşdiyi mürəkkəb problemlər fonunda Azərbaycanın dayanıqlı inkişafı, bütün sosial proqramların davamlı olaraq icra edilməsi sosial təminat məsələlərinin dövlətin iqtisadi siyasətinin başlıca elementi olmasını bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları ölkənin gələcək iqtisadi inkişaf taleyini və Azərbaycan vətəndaşının maraqlarını daim üstün tutaraq qeyd etmişdir ki, "Azərbaycan sosial dövlətdir və burada hər şey insanlar üçün, hər şey Azərbaycan vətəndaşları üçün olmalıdır".

Qeyd olunanları nəzərə alaraq, "Sosial təminat sisteminin təkmilləşdirilməsi istiqamətləri" adlı dissertasiya mövzusu aktual olaraq praktiki əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Müasir dövrdə sosial bazar iqtisadiyyatı şəraitində ölkədə sosiallaşma meyli güclənmiş, bu da sosial təminat sisteminin təkmilləşdirilməsinə əlverişli şərait yaratmışdır. Bunun nəticəsidir ki, son illər əhalinin sosial təminatının

yaxşılaşdırılması məsələləri geniş tədqiqat obyektinə çevrilmiş və bu sahədə bir çox araşdırmalar aparılmışdır. Ölkə səviyyəsində sosial təminatın ayrı-ayrı elementlərinin formalaşması və inkişaf problemlərinin nəzəri və praktiki məsələləri akademik Z.Səmədzadə, professor S.Müslümov, S.Mehbaliyev, Y.Həsənli, A.Məhərrəmov, R.İsgəndərov, C.Namazova, F.Rəhmanov, R.Mürşüdov, C.Quliyev, A.Musayev, H.Rəcəbli, Ə.Nağıyev, Ə.Əlirzayev, V.Mütəllimova, K.Şahbazov, R.Əşrəfova, F.Musayeva, H.Şamilova, R.Hüseynov və s. alimlərin elmi əsərlərində tədqiq edilmişdir. Xarici ölkə alimlərindən İ.Qriqoryev, V.Şayxatdinova V.Kijikin, E. Xolostov, Q.Klimantov, M.Grosh, C. Ninno, E.Tesliuc və A.Ouerghi və digərlərinin elmi araşdırmalarında yoxsulluq, məşğulluq, işsizlik, gəlirin kəskin azalması, xəstəlik, uşağın doğulması, əmək xəsarətləri, yaxud peşə xəstəlikləri, əlillik və qocalıq, valideynin itirilməsi və s. hallardan qorunması problemləri geniş şəkildə tədqiq edilmişdir. Lakin qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında sosial təminat problemləri müxtəlif bölmələr üzrə geniş tədqiq edilməsinə baxmayaraq, kompleks şəkildə tədqiq edilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan Respublikasında əhalinin, xüsusilə aztəminatlı təbəqəsinin ən sadə, həyati vacib olan standartlarla təmin edilməsinə və onların sosial müdafiə sisteminə çıxışının dayanıqlı olmasına dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqat işində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- ✓ Sosial təminata dair elmi-nəzəri yanaşmaları təhlil edərək ümumiləşdirmək;
- ✓ Mövcud metodologiyaları müqayisə etməklə, ölkəmizin müasir sosial-iqtisadi inkişaf səviyəsinə uyğun olan metodologiyanı müəyyən etmək;
- ✓ Sosial təminatın metodoloji və hüquqi aspektlərini araşdırmaq;
- ✓ Müxtəlif ölkələrdə sosial təminat sisteminin əsas elementləri və vacib xüsusiyyətlərini ümumiləşdirmək;
- ✓ Seçilmiş metodologiyadan istifadə edərək Azərbaycanda həyat səviyyəsi və sosial təminat siyasətini qiymətləndirmək;
- ✓ Azərbaycanda sosial yardım sisteminin mövcud vəziyyətinin tədqiqi, qiymətləndirilməsi və inkişaf meyillərinin müəyyən olunması;
- ✓ Azərbaycanda sosial müavinət və güzəşt sistemlərinin mövcud

vəziyyətinin tədqiqi, qiymətləndirilməsi və inkişaf meyillərinin müəyyən olunması;

- ✓ Azərbaycanın Sosial təminat sisteminin təkmilləşdirilməsi və inkişafında beynəlxalq konvensiyaların rolunun qiymətləndirilməsi;
- ✓ Pensiya və sosial sığorta sisteminin müasir normalara uyğun inkişaf meyillərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının sosial təminat sistemidir.

**Tədqiqatın predmeti.** Tədqiqat işinin predmetini müasir dövrdə Azərbaycan Respublikasında mövcud sosial təminat sisteminin nəzəri-metadoloji aspektlərinə yeni formada yanaşılması və elmi-praktiki cəhətdən reallaşma istiqamətlərinin müəyyən edilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri metodoloji əsaslarını görkəmli iqtisadçı alimlərin əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi normativ-hüquqi aktlar təşkil edir. Dissertasiya işində analitik-statistik təhlil, iqtisadi riyazi və məntiqi ümumiləşmə, statistik sorğu və qrafik üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Əmək və əhalinin sosial müdafiə, İqtisadiyyat, Səhiyyə Nazirlikləri, eləcə də digər nazirlik və komitələrin, Dövlət Sosial Müdafiə Fondu, Beynəlxalq Əmək Təşkilatının, Dünya Bankının materialları, həmçinin internet məlumatları təşkil edir.

**Tədqiqatın elmi yenilikləri.** Sosial təminat sisteminin təkmilləşdirilməsinə dair müxtəlif elmi-nəzəri baxışlara müəllif mövqeyi bildirilməklə, problemə müasir konteksdə yanaşılması imkanları müəyyən edilmiş, ölkədə sosial təminat sistemini formalaşdıran kompleks amillərin təsir səviyyəsi qiymətləndirilmiş və onların təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüşdür.

- ✓ Azərbaycan Respublikası ilə müqayisədə dünya ölkələrində sosial təminat sisteminin və onun struktur elementlərinin fərqləndirici xüsusiyyətləri müəyyən olunmuşdur;
- ✓ Ölkədə sosial yardım sisteminin əhalinin təminat səviyyəsinə təsiri və aktiv sosial yardım proqramlarının tətbiqinin mümkünlüyü müəyyənləşdirilmişdir;
- ✓ Sosial müavinət sistemlərinin təkmilləşdirilməsi üzrə pers-

pektiv imkanlar müəyyən olunmuşdur;

- ✓ Pensiya və sosial sığorta sisteminin təkmilləşdirilməsi üzrə strateji istiqamətlər göstərilmiş və əsaslı təkliflər irəli sürülmüşdür;
- ✓ İnflyasiya nəzərə alınmaqla növbəti illər üçün ölkə üzrə Yaşayış Minimumunun proqnozu işlənilmiş və yoxsulluq riskinin yüksək olması şəraitində aztəminatlı qrupların sosial müdafiəsinin təmin edilməsi məqsədilə sosial təhlükəsizlik şəbəkəsinin yaradılmasına dair təkliflər irəli sürülmüşdür;
- ✓ 2015-ci ildə baş vermiş devalvasiyanın Azərbaycanın "İnsan İnkişafı İndeksi"ndəki mövqeyinə təsirləri qiymətləndirilmişdir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən sosial-iqtisadi inkişaf proqramlarının hazırlanmasında, sosial təminat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənilməsində, elmi işdə verilən indikatorlardan ölkədə həyat səviyyəsinin təhlili və proqnozu üçün istifadə edilməsində, həmçinin ali təhsil müəssisələrində müvafiq kursların tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, əsaslandırılmış təklif və tövsiyələri bir sıra yerli və beynəlxalq jurnallarda çap olunmuş, ölkədə keçirilmiş elmi-praktiki konfranslarda və seminarlarda məruzə və müzakirə edilmişdir. Eyni zamanda dissertasiya işinin bir sıra mühim elmi nəticələri yazılı məruzə formasında Azərbaycan Respublikası Əmək və əhalinin sosial müdafiəsi Nazirliyinə təqdim olunmuş, müvafiq abrobasiyadan keçərək müəyyən təkliflərin tətbiqi haqqında arayış (27.09.2016-cı il tarixli, 16030061254 nömrəli Arayış) alınmışdır. Tədqiqat nəticəsində ümumi həcmi 8 çap vərəqi olan 15 elmi məqalə dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 178 səhifədir. İşdə 14 cədvəl, 41 şəkil və 2 sxem verilmiş və dissertasiya işində 106 adda ədəbiyyatdan istifadə olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir. Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi barədə məlumat verilir.

**"Sosial təminat sisteminin təkmilləşdirilməsinin elmi-metodo-**

**loji əsasları"** adlanan **birinci fəsildə** sosial təminat sisteminin formalaşmasının tarixi inkişaf mərhələləri, nəzəri metodoloji və hüquqi aspektlər, müxtəlif ölkələrin sosial təminat sistemləri, eyni zamanda müxtəlif alimlərin elmi yanaşmaları müqayisəli təhlil edilmişdir.

Müasir dövrdə sosial təminat sisteminin formalaşdırılması və inkişafının nəzəri aspektləri haqqında tanınmış iqtisadçı alimlərin fikir və mülahizələrinə münasibət bildirilmişdir. Tədqiqatçıların fikirlərinə əsasən dayanıqlı sosial təminat sisteminin yaradılması üçün ilk növbədə yoxsulluq riski yüksək olan həssas əhali qrupu nəzərə alınmalı və bu qrupun sosial müdafiəsinin təmin edilməsi üçün sosial təhlükəsizlik şəbəkəsi yaradılmalıdır. Sosial təhlükəsizlik şəbəkələrinin makroiqtisadi stabilliyin təmin olunmasında böyük rol oynayır və bu şəbəkələr ifrat yoxsulluğun azaldılmasına xidmət edir. Burada ən vacib - sağlamlıq, təhsil, maliyyə xidmətləri və ev təsərrüfatlarının risklərinin idarə olunması kimi məsələləri əhatə olunur. Bu yanaşmada sosial müdafiə və təminat proqramlarının icrası zamanı müxtəlif metodlardan istifadə olunur ki, bunlara, tibbi sığorta, şərti nağd transferlər, ünvanlı sosial yardımlar, xüsusi həssas qruplara verilən müavinətlər və başqa bu kimi yardımlar şəklində ödənişlər aid edilir. Daha ümumiləşdirilmiş formada desək, sosial təhlükəsizlik şəbəkələri səmərəli sosial təminat sisteminin qurulması və dayanıqlı sosial inkişaf siyasətində əsas 3 rolu özündə birləşdirir:

➢ Şəbəkələr yoxsulluq və qeyri-bərabərliyi azaldaraq gəlirləri kasıb və daha həssas qruplar arasında bölüşdürür.

➢ Şəbəkələr ev təsərrüfatlarının gələcəkdə daha yaxşı yatırım etmələrini stimullaşdırır və risklərin idarə olunmasını təmin edir.

➢ Şəbəkələr dövlətə inkişaf və effektivliyin artırılması üçün seçim imkanı yaradır.

Xüsusilə qeyd etmək lazımdır ki, XXI əsr qloballaşma prosesinin dərinləşdiyi və dünya ölkələri arasında inteqrasiyanın gücləndiyi bir dövrdə ənənəvi sosial təminat proqramlarının tətbiqinin səmərəliliyi azalmaqdadır. Tətbiq olunan müxtəlif növ passiv transfertlər əhalinin gəlirlərində müəyyən artım yaratsa da yığımda heç bir dəyişiklik baş vermir. Bu proqramların çətin həyat şəraitində olan əhali qrupunu əhatə etməsinə baxmayaraq, səmərəlilik bəzən aşağı olur. Burada tətbiq olunan transfertlər passiv xarakterli olduğundan aztəminatlı və müəyyən potensialı olan insanların əmək bazarında fəallıqlarının azalmasına səbəb olur. Məhz buna görə də insan cəmiyyətinin bugünkü inkişaf

mərhələsində sosial-iqtisadi siyasətin daha səmərəli olmasını və az-təminatlı ailələrin ələbaxımlıq sindromundan çıxaraq aktiv fəaliyyətlə məşğulluqlarını təmin etmələri və bu yolla sosial təminat sisteminin innovativ formada qurulması məqsədilə əmək bazarına çıxışın stimullaşdırılması və aktiv məşğulluq və sosial proqramların tətbiqi məsələləri zəruriliyini saxlayır. Aktiv əmək bazarı proqramları bir sıra ölkələrdə o cümlədən Avropa və Mərkəzi Asiya ölkələrində işsizliyin azaldılması, insanların passiv proqramlardan reabilitasiya olunmaları yolu ilə əmək bazarlarına inteqrasiyası məqsədilə tətbiq olunur.

Tədqiqatın müvafiq fəslində bəzi Avropa və Mərkəzi Asiya ölkələrinin sosial təminat proqramlarına ÜDM-in nisbətində ayrılan maliyyə vəsaitlərinə müqayisəli şəkildə baxılmışdır. Xatırladaq ki, burada mavi rənglə verilmiş hissə sosial sığortaya, qırmızı rənglə göstərilən hissə əmək bazarı proqramlarına və yaşıl rənglə verilmiş hissə sosial yardımlara ayırmaları göstərir.




Şəkil 1.1. Şərqi Avropa və Mərkəzi Asiyanın bəzi ölkələrində ÜDM-in nisbətində sosial təminat sisteminə ayırmalar

Şəkildə Şərqi Avropa və Mərkəzi Asiyanın bəzi ölkələri ilə yanaşı Respublikamızın da eyni göstərici üzrə statistikası əks olunmuşdur. Müqayisədən göründüyü kimi, qeyd edilən bütün ölkələrdə sosial təminata ayrılan xərclərin böyük hissəsi sosial sığortanın payına düşür. Bu faiz ÜDM-in 2%-dən 16%-dək dəyişmişdir. Ayrılan xərclərin ikinci əsas hissəsini sosial yardımlar təşkil edir. Sosial yardım xərcləri Xorvatiyada və Estoniyada ÜDM-in təqribi 4%-ni, Tacikistanda və Latviyada cəmi 0.5%-ni təşkil edir. Bu isə onu deməyə əsas verir ki,

inkişaf etmiş ölkələrin əksəriyyətində sosial təminat daha çox işləyənlərin müdafiəsini dəstəkləyir yaxud iqtisadiyyatda məşğul olanların və muzdlu işləyənlərin sayı daha çoxdur. Eyni zamanda aktiv əmək bazarı proqramlarının xüsusi çəkisinin böyük olması aztəminatlıların əmək bazarına inteqrasiya edilməsini təmin edir.

**Azərbaycanda sosial təminat sisteminin mövcud vəziyyətinin tədqiqi və qiymətləndirilməsi** adlanan **ikinci fəsildə** ümumilikdə Respublikamızda həyat səviyyəsi və sosial təminat siyasəti, eyni zamanda sosial yardım, müavinət və pensiya sisteminin cari vəziyyəti ilə bağlı təhlillər aparılmışdır.

Həyat səviyyəsinin yüksəldilməsi, mütərəqqi təminat sisteminin qurulması və davamlı inkişafın təmin olunmasında insanların rifah halının yaxşılaşdırılması və onların minimum yaşayış standartları ilə təmin olunması başlıca amillərdən hesab olunur. Bunun üçün gəlirlərdə bərabərlik və ədalətli paylanmanın təmin edilməsi sosial siyasətin əsas xəttini təşkil etməlidir. Gəlir bərabərliyinin hesablanması üçün beynəlxalq praktikada Cini əmsalından geniş istifadə olunur. 2012-2013-ci illərin rəqəm bazası əsasında hesablanmış nəticələr göstərir ki, həmin dövrdə respublikamızda Cini əmsalı təxmini 0.29-də qərarlaşıb. Lakin GE (0), G(1) və G(2) göstəricilərində nəticələr fərqlidir. Belə ki, ən yuxarı təbəqədə nəticə təxmini 0.5-dir. Bu isə vahidin demək olar ki yarısını təşkil edir. Ümumi nəticələrə nəzər salarkən məlum olur ki, əhalinin aztəminatlı hissəsinin gəlirlərinin paylanmasında ədalətlilik prinsipi daha çox qorunmuş lakin, yuxarıya doğru bu göstərici artmağa başlamışdır.

Məhz buna görə də davamlı inkişafın təmin edilməsi və ölkədə makroiqtisadi sabitliyin qorunması və uzunmüddətli inkişaf strategiyasının reallaşdırılması üçün əhalinin gəlirlərinin paylanması ədalətli olmalı və yoxsulluq həddi tədricən ən minimum həddə düşməlidir. Tədqiqat zamanı baxılan və rifah halının əsas göstəricilərindən sayılan İnsan İnkişafı İndeksi insanların əsas ehtiyaclarının ödənilməsi və uzunmüddətli təsərrüfatın qurulması üçün zəruridir. Davamlı iqtisadi inkişafın bu istiqamətdə qiymətləndirilməsi müasir dövr iqtisadçıları tərəfindən də müsbət dəyərləndirilir. Belə ki, insan potensialının inkişafı həm sosial, həm də iqtisadi tərəfdən inkişafı stimullaşdırmış olur. İnsan inkişafı özündə uzunömürlülük, - burada anadan olanda gözlənilən ömür müddəti, savadlılıq səviyyəsi və ya təhsilə cəlb olunma səviyyəsi və ən nəhayət adambaşına düşən real

Ümumi Daxili Məhsul göstəricilərini birləşdirir. 21 dekabr 2015-ci il tarixində Mərkəzi Bank tərəfindən manatın üzən məzənnə sisteminə keçidindən sonra gəlir indeksinin, ümumilikdə insan inkişafı indeksinin yenidən hesablanması zərurəti yaranır. Hal-hazırda ÜMG ilə bağlı yekun göstəricilər olmadığından hesablamalar zamanı 2014-cü ilin ÜMG göstəricisi istifadə olunub.

2015-ci il üçün respublikamızda İnsan inkişafı indeksi belə hesablanır:

$$\textbf{İİİ} = \sqrt[3]{(\text{indeks1 x indeks2 x indeks 3})} = \sqrt[3]{0.781 \text{x} 0.703 \text{x} 0.67} = 0.716$$

Hesablamalar göstərir ki, Azərbaycanın İİİ üzrə 78-ci yerdən 101-102-ci yerə qədər düşməsi ehtimalı vardır. Bu isə Azərbaycanın "yüksək inkişaf qrupu"nda saxlasa da, "orta inkişaf qrupu"na düşmək ehtimalını artırır.

Dissertasiya işində respublikamızda əhalinin təminat səviyyəsinə təsir edən sosial proqramların təhlili zamanı müzakirə məsələsi kimi sosial yardımların mövcud vəziyyətinin təhlilinə geniş yer verilmişdir. 2015-cü ilin statistik məlumatlarına əsasən respublika üzrə 404 272 üzvü olan 92 514 ailəyə, adambaşına 35.47 manat olmaqla, 155.01 manat məbləğində ÜSY təyin edilmişdir.

2006-cı ildən tətbiq olunan ÜSY proqramının nəzəri qiymətləndirilməsi ilə yanaşı empirik formada qiymətləndirilməsi üçün müasir iqtisadi üsullar kimi ekonometrik modellərdən xüsusilə reqressiya cədvəllərindən istifadə edilmiş və müvafiq təhlillər aparılmışdır.

Cədvəl 2.1: Yardımların reqressiya modeli

| Source | SS | df | MS |
|---|---|---|---|
| Model | 1.4940e+09 | 3 | 497986811 |
| Residual | 3633.09558 | 1 | 3633.09558 |
| Total | 1.4940e+09 | 4 | 373491016 |

| | | |
|---|---|---|
| Number of obs | = | 5 |
| F( 3, 1) | = | . |
| Prob > F | = | 0.0020 |
| R-squared | = | 1.0000 |
| Adj R-squared | = | 1.0000 |
| Root MSE | = | 60.275 |

| aileler | Coef. | Std. Err. | t | P>\|t\| | [95% Conf. | Interval] |
|---|---|---|---|---|---|---|
| USYOA | 437.9062 | 3.762431 | 116.39 | 0.005 | 390.1 | 485.7124 |
| USYAB | 1344.859 | 14.43455 | 93.17 | 0.007 | 1161.451 | 1528.267 |
| USYTM | 3.5577 | .0074104 | 480.10 | 0.001 | 3.463543 | 3.651858 |
| _cons | -284287.4 | 961.6188 | -295.63 | 0.002 | -296505.9 | -272068.8 |

Modelin zaman dövrü 2006-2015-ci illəri əhatə edir. Modeldə "USYOA" Ünvanlı sosial yardımın orta aylıq məbləğini, "AİLELER" dəyişəni yardım alan ailələrin sayını, "USYAB" dəyişəni sosial yardımın adambaşına olan məbləğini, "USYTM" dəyişəni

isə yardım üçün təkrar müraciət edənlərin sayını göstərir. Yuxarıda qeyd etdiyimiz kimi modeli xətti reqressiya qaydalarına uyğun tərtib etsək və uyğun dəyişənləri uyğun əmsallarda yerləşdirsək, aşağıdakı riyazi formanı almış olarıq:

$$AİLELER=437.9x_1+1344.8x_2+3.55x_3-2887.4+u \quad (2)$$

Müqayisəli formada verilən regressiya cədvəlindən məlumdur ki, digər faktorların sabit saxlanılması şərtində 2006-2015-ci illər ərzində yardım üçün sosial yarımların orta aylıq və adambaşına olan məbləğinin 1 manat artımı ÜSY alan ailələrin sayını müvafiq olaraq 437 və 1344 vahid artırmışdır . Başqa sözlə desək dəyişənlər arasında müsbət korelliasiya müşahidə olunmuşdur. Orta aylıq məbləğlərin yüksəlməsi yardıma olan marağı artırmış və müraciətlərin sayının artımına gətirib çıxarmışdır. Yarımların təhlili zamanı yardım alan benefisiarların sayında təkrar müraciət edənlərin xüsusi çəkisinin artmasını aydın müşahidə etmək mümküdür. Belə ki, Əmək və əhalinin sosial müdafiəsi Nazirliyinin statistik məlumatlarına əsasən 01 yanvar 2016-cı ilə olan məlumata əsasən yardım alan ailələrin təxmini 72 faizini təkrar müraciət edən ailələr təşkil edir. Lakin, növbəti reqressiya cədvəlində ehtiyac meyarı və yaşayış minimumu ilə adambaşına düşən ünvanlı sosial yardımların asılılığına baxsaq yardımların məbləğlərinin artım surətinin minimal yaşayış standartlarından geri qaldığını müşahidə edərik. Eyni zamanda ehtiyac meyarı və yaşayış minimumu ilə adambaşına düşən sosial yarımların regressiya nəticələri göstərir ki, 2006-2015-ci illər ərzində sosial yardımın adambaşına olan məbləğinin 1 manat artımı ehtiyac meyarı və yaşayış minimumunda müvafiq olaraq 2.92 və 2.96 manat artımla müşahidə olunmuşdur. Bu isə onu deməyə imkan verir ki, yardım təyin edilən ailələrdə adambaşına təyin edilən məbləğlər minimal yaşayış standartlarından əhəmiyyətli dərəcədə aşağıdır. Bunun obyektiv səbəblərinin olduğunu qeyd etmək olar, çünki yardımların təyinatı zamanı digər gəlir mənbələri hesablanma zamanı nəzərə alınan amillərdəndir. Lakin buna baxmayaraq fərqin böyük olması birmənalı hesab edilə bilməz. Burada ev təsərrüfatlarının gəlirlərinin süni formada reallıqdan daha yüksək yazılması yardım məbləğlərinin aşağı düşməsi ehtimalını artırır.

Ümumilikdə Respublika səviyyəsində sosial yardımların məbləğ-

ləri və paylanmasının müxtəlifliyi dissertasiya işində verilmiş müqayisəli cədvəllərdən aydın şəkildə görmək mümkündür. Lakin, sosial yardımlar insanların ehtiyac meyarı və gəlirləri arasındakı fərqə uyğun təyin edildiyi üçün müxtəlif ailələrdə yardımların məbləğləri də fərqlidir. Azərbaycanda 2006-cı ildən tətbiq edilən sosial yardımların məbləğləri orta hesabla artmış və 2014-cü ildə 125.71 manat təşkil etmişdir. Aşağıdakı histoqramdan yardımların sıxlıq aralıqlarına baxmaq mümkündür.




Şəkil 2.1. 2013-14-ci ildə ÜSY məbləğlərinin sıxlıq aralığı

Şəkil 2.1-dən göründüyü kimi, yardımların məbləğləri ümumilikdə təqribən 3-300 manat aralığında dəyişmişdir. Lakin 90-100 manat aralığında daha böyük sıxlıq müşahidə edilmişdir. Buradan belə nəticəyə gəlmək mümkündür ki, ÜSY alan ailələrin əsas hissəsinin ÜSY-dən daxil olan gəlirləri 100 manatın ətrafında dəyişmişdir. Başqa sözlə desək Nazirlik tərəfindən 2013-ci ildə orta aylıq 124 manat göstərilən ÜSY 100 manat ətrafında dəyişmişdir. Burada təyinat zamanı ailənin həm rəsmi mənbələrdən daxil olan gəlirləri, həm də qeyri-rəsmi daxilolmalar nəzərə alınır.

Təminat sisteminin əsas elementlərindən olan pensiya sistemi və onun müxtəlif elementləri tədqiqat zamanı əsas araşdırma istiqamətlərindən olmuşdur. 2004-cü ildən 2006-cı ilə qədər olan dövrdə pensiya alan benefisiarların sayı digər illərə nisbətən daha çoxdur. Belə ki, bu illərdə benefisiarların sayı müvafiq olaraq 1 327 000 və 1 399 000 aralığında dəyişmişdir. Lakin, 2006-cı ildə Pensiyalar və Sosial müavinətlər haqqında Azərbaycan Respublikasının Qanunlarının qəbulundan sonra pensiyaların növ və tərkibində

dəyişikliklər olmuş və sosial pensiyalar sosial müavinətlərlə əvəz olunmuşdur. Məhz buna görə də 2007-ci ildən başlayaraq benefisiarların sayı azalmış və hal-hazırda 2015-ci ilin statistikasına nəzər salsaq bu rəqəmin 1291.0 min nəfər olduğunu müşahidə etmək mümkündür.

Aparılan sosial-iqtisadi siyasət nəticəsində pensiyaların orta aylıq məbləği və baza hissəsi müvafiq olaraq 2004-cü ildəki 25 və 20 manat həddindən nəzərə çarpan dərəcədə artaraq 2015-ci ildəki 176 və 110 manata həddinə yüksəlmişdir. Bununla yanaşı xüsusi olaraq qeyd etmək lazımdır ki, pensiya məbləğlərinin artımı həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluq riskinin azaldılması üçün həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri kimi qiymətləndirmək olar. Yaxın 10 ilin statistik göstəricilərinə nəzər saldığımız zaman artıq 2007-ci ildən etibarən orta aylıq pensiya məbləğlərinin yoxsulluq həddini üstələdiyini aydın müşahidə etmək mümkündür.




| | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| —●— Təyin olunmuş aylıq pensiyaların orta məbləği | 23,8 | 24 | 28,5 | 41,1 | 62,9 | 95,8 | 100,4 | 112,9 | 145,1 | 152 | 170,5 | 173,4 |
| —○— Əmək pensiyasının baza hissəsi | 20 | 25 | 35 | 50 | 75 | 75 | 85 | 85 | 85 | 100 | 105 | 110 |

Şəkil 2.2 Azərbaycan orta aylıq əmək pensiyaları və əmək pensiyasının baza hissəsinin aylıq məbləğlərinin dinamikası (2004-2015).

Statistik məlumatlara nəzər saldığımız zaman orta aylıq pensiya məbləğlərinin yoxsulluq həddini əhəmiyyətli dərəcədə keçdiyini və 2016-ci ildə yoxsulluq həddinin 136 manat, orta aylıq pensiyaların isə 176 manat təşkil etdiyini görmək mümkündür. Qeyd edək ki, pensiya məbləğlərinin yoxsulluq həddindən yüksək olması əmək qabiliyyətini istər pensiya yaşına çatmadan istərsədə ahıllıq səbəbindən itirmiş insanlar üçün əsas iqtisadi təhlükəsizlik rolunu oynayır. Bir sıra Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş normalara nəzərə

salsaq, pensiya müavinət və minimum əmək haqqı kimi rifah göstəricilərinin minimum məbləğinin orta aylıq əmək haqqının 50-60 faizi həddində olmasını müşahidə etmək mümkündür. Respublikamızda əmək pensiyalarının orta aylıq məbləğləri yoxsulluq həddinə nisbəti daha yüksək olsa da bu göstəricinin orta aylıq əmək haqqına nisbəti beynəlxalq səviyyədə qəbul edilmiş standartlardan daha aşağıdır.

Araşdırmanın əsas istiqamətlərindən biri kimi nəzərdə tutulan müavinət və güzəştlər 2006-cı ildən tətbiq edilən müvafiq qanunda qeyd edildiyi kimi, 35-ə yaxın növdə tətbiq edilir. Qanunvericiliklə nəzərdə tutulduğu kimi, bu növ müavinət və güzəştlər ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir. 2006-2015-ci illər ərzində ən çox artım sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara təyin edilən müavinətlərdə müşahidə olunmuşdur. Bu müavinətin məbləği 2006-cı ildəki 25 manatdan, 2015-ci ildəki 74 manata yüksəlmişdir. Başqa sözlə desək, orta hesabla 165 % artmışdır. Lakin bu artım ölkə üzrə müəyyən edilmiş yaşayış minimumu və ehtiyac meyarını keçməmişdir.

Qeyd edək ki, 2006-2015-ci illər ərzində yaşa görə və ailə başçısını itirilməsinə görə ödənilən sosial müavinətlərdə də nəzərə çarpan dərəcədə artım müşahidə olunmuşdur. “Sosial müavinətlər haqqında” qanunun 7.0.2 maddəsində yaşa görə sosial müavinət “əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə” təyin olunur. Qanunvericiliklə bu müavinəti almaq üçün qadınlar 62 yaşda, kişilər isə 67 yaşda müraciət edə bilərlər. Müavinəti almaq hüququnu təmin edən yaş həddi əmək pensiyası almaq üçün müəyyən edilmiş yaş həddindən daha yüksəkdir. Sözügedən müavinət göstərilən zaman ərzində 20 manatdan 67 manatadək yüksəlmişdir. Bundan başqa “Sosial müavinətlər haqqında” Qanunun 7.0.5.1 və 7.0.5.2 maddələrində nəzərdə tutulduğu kimi ailə başçısının itirilməsinə görə verilən sosial müavinət “əmək qabiliyyətli şəxsin əmək pensiyası almaq hüququ olmadıqda” və yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən, qardaş, bacı, baba və nənələrdən biri vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxdıqda və işləmədikdə” təyin edilir. Bu formada tətbiq edilən sosial müavinəti ailədə olan uşaqlar 18 yaşına çatanadək xüsusi hallarda isə (əyani formada təhsil aldıqda) 23 yaşadək verilir. Sözügedən sosial müavinətin məbləği 2006-ci ildə 20 manatdan,

2015-ci ildəki 60 manat həddinə yüksəlmişdir.

**Azərbaycanda sosial təminat sisteminin təkmilləşdirilməsi və inkişaf meyilləri"** adlanan **üçüncü fəsildə** ümumilikdə respublikamızda sosial yardım, müavinət və pensiya sisteminin dayanıqlığının təmin edilməsi və müasir çağırışlara cavab verən sosial təminat sisteminin formalaşdırılması və inkişafı üçün təkliflər verilmişdir.

İqtisadiyyatda baş verən müxtəlif şokların sistemin digər elementləri kimi sosial göstəricilərə də təsirinə baxmaq məqsədilə 2015-ci ilin devalvasiyası nəticəsində 2015 və 2016-2019-cu illər üçün proqnoz inflyasiya nəzərə alınaraq hesablanmış yaşayış minimumu (yoxsulluq həddi) göstəricisinə nəzər salınmışdır.

| | 2014 | 2015 | | 2016 | | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | fakt | İQİ | gözlənilən | İQİ | dəyəri | İQİ | dəyəri | İQİ | dəyəri | İQİ | dəyəri |
| Ərzaq məhsullarının minimum toplusu | 74.4 | 103.0 | 77.4 | 114.0 | 89.0 | 107.6 | 96.6 | 107.2 | 104.6 | 106.8 | 112.7 |
| Fərdi istifadə olunan qeyri-ərzaq mallarının minimum toplusu | 32.2 | 106.5 | 34.6 | 118.0 | 41.2 | 109.8 | 45.6 | 108.9 | 50.2 | 109.0 | 55.2 |
| Xidmətlərin minimum toplusu | 20.3 | 105.8 | 21.7 | 107.0 | 23.4 | 108.0 | 25.5 | 108.5 | 27.9 | 108.0 | 30.5 |
| **İstehlak səbətinin dəyəri** | **126.9** | | **133.7** | | **155.1** | | **169.5** | | **184.5** | | **200.3** |
| İcbari ödənişlər | 4.0 | | 1.1 | | 4.9 | | 6.5 | | 8.2 | | 10.0 |
| **Yaşayış minimumunun dəyəri** | **130.9** | | **134.8** | | **160.0** | | **176.0** | | **192.7** | | **210.4** |

| | İQİ | | | | |
|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| **Cəmi** | **4.4** | **13.7** | **8.3** | **7.9** | **7.6** |
| Ərzaq | 3 | 14 | 7.6 | 7.2 | 6.8 |
| Qeyri-ərzaq | 6.5 | 18.0 | 9.8 | 8.9 | 9.0 |
| Xidmətlər | 5.8 | 7 | 8 | 8.5 | 8.0 |

Şəkil 3.1. Yaşayış minimumunun inflasiya nəzərə alınmış proqnozu (2016-2019)

Proqnoz inflyasiya nəzərə alınaraq artırılmış yaşayış minimumu 2015-ci il üçün 134.8 manat, 2016-cı il üçün 160.0, 2017-ci il üçün 176.0, 2018-ci il üçün 192.7, 2019-cu il üçün isə müvafiq olaraq 210.4 manat təşkil edəcəkdir. Buna görə də mövcud iqtisadi şəraitdə 2015-ci il üçün 5.2 faizdə qərarlaşan yoxsulluq 2016-cı və sonrakı 3 il üçün təxmini 11.1%-ə qədər yüksələcəkdir. Bu isə əhalinin aztəminatlı təbəqələrinin sosial risklərə qarşı dayanıqlığını zəiflədəcəyi, yoxsulluq səviyyəsinin və sosial bərabərsizliyin artmasını şərtləndirmiş olacaqdır. Bunun üçün növbəti ortamüddətli dövrdə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi, milli iqtisadiyyatın maliyyə

dayanıqlığının və beynəlxalq rəqabət qabiliyyətinin təmin olunmasına imkan verən monetar siyasətin həyata keçirilməsi, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin zəruri həddə təmin olunması, yoxsulluq səviyyəsinin və sosial bərabərsizliyin artmasının qarşısını alınması, əmək haqları, pensiyalar, təqaüdlər və s. sosial ödənişlərin devalvasiya və real inflyasiya nəzərə alınmaqla artırılması istiqamətində tədbirlərin gücləndirilməsi məqsədəuyğundur.

Bu məqsədlə tətbiq edilən sosial yardım sisteminin təkmilləşdirilməsi üçün bir sıra sahələrin inkişaf etdirilməsi və yardım sisteminin mütərəqqi dünya təcrübəsində tətbiq edilən sistemlərlə müqayisəli qurulmasına nail olunmalıdır. Bunun üçün ilk növbədə yoxsulluq konsepsiyasında yeni yanaşmaların tətbiq edilməsi təklif olunur.

***Çoxölçülü faktorlar əsasında yoxsulluq səviyyəsinin ölçülməsinin tətbiq edilməsi***. Bildiyimiz kimi ölkəmizdə yoxsulluq həddi mütləq yoxsulluq göstərici ilə müəyyən edilir. Bu göstərici isə aztəminatlı ailələrin xüsusi ehtiyaclarının təmin edilməsini qarşılaya bilmir. Başqa sözlə desək, çoxölçülü yoxsulluq konsepsiyasının tətbiqi aztəminatlılığı yalnız maddi ölçü ilə deyil konkret ehtiyacların fonunda qiymətləndirilməsinə imkan verəcəkdir. Burada aztəminatlılıq insanın yetərli səviyyədə gəlir əldə etmə və istehlak tələbatını ödəmək imkanları, layiqli işlə təmin olunmaq, habelə istehsal resurslarından, o cümlədən, torpaq, su və enerji ehtiyatlarından istifadə imkanları, təhsil almaq, istirahət etmək, səhiyyə və mədəni xidmətlərdən faydalanmaq imkanları, kişilərlə qadınların hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraiti, ekoloji vəziyyət və s. bu kimi şərtlərlə əlaqələndirilir.

***Aktiv sosial yardım proqramlarının tətbiqi ilə əmək bazarına inteqrasiya***. XXI əsr qloballaşma prosesinin dərinləşdiyi və dünya ölkələri arasında inteqrasiyanın gücləndiyi bir dövrdə ənənəvi sosial proqramların tətbiqinin səmərəliliyi azalmaqdadır. Tətbiq olunan müxtəlif növ passiv transferlər əhalinin gəlirlərində müəyyən artım yaratsa da yığımda heç bir dəyişiklik yaratmır. Bu proqramların çətin həyat şəraitində olan əhali qrupunu əhatə etməsinə baxmayaraq, səmərəlilik bəzən aşağı olur. Burada tətbiq olunan transferlər passiv xarakterli olduğundan aztəminatlı və müəyyən potensialı olan insan-

ların əmək bazarında fəallıqlarının azalmasına səbəb olur. Məhz buna görə də sosial-iqtisadi siyasətin daha səmərəli olmasını və aztəminatlı ailələrin ələbaxımlıq sindromundan çıxaraq aktiv fəaliyyətlə məşğulluqlarını təmin etmələri məqsədilə əmək bazarına çıxışın stimullaşdırılması və aktiv məşğulluq və sosial proqramların tətbiqi məsələləri təklif olunur.

***Ehtiyacların qiymətləndirilməsi kontekstində yardım proqramlarının tətbiq edilməsi.*** Cari iqtisadi vəziyyətdə məhdud sosial yardım mənbələrinin ən yoxsul və ehtiyacı olan kvintillər arasında səmərəli bölgüsünün həyata keçirilməsi vacib məsələlərdəndir. Yardım proqramlarında ünvanlılığın təmin edilməsi əsasən benefisiarların aztəminatlılığının təyin edilməsindən birbaşa asılıdır. Burada aztəminatlılıq kontekstində eyni zamanda yoxsulluğun müəyyən edilməsi anlayışı başa düşülür. Məhz buna görə də ehtiyacların qiymətləndirilməsi kontekstində proqramların tətbiqi maliyyə vəsaitlərinə qənaət, ünvanlılığın təmin edilməsi, çoxölçülü yoxsulluğun qiymətləndirilməsi və proqramların səmərəliliyinə təsir edən əsas istiqamət kimi nəzərdən keçirilə bilər.

***İnzibati və institusional islahatların tətbiqi.*** Sosial yardım proqramlarının tətbiqi zamanı çoxlu sayda korrupsiya və saxtakarlıq hallarına rast gəlmək mümkündür. Korrupsiya və yalançılıq halları isə həm benefisiarın, həm də sosial inspektorların səhvi səbəbindən baş verə bilər. Bu halları niyyətli və təsadüfi formalarda ola bilər. Eyni zamanda bu hallar həm sosial yardım proqramlarının iddiaçıları tərəfindən, həm də sosial müfəttişlər tərəfindən yaradıla bilər. Qeyd etmək lazımdır ki, bır sıra ölkələrdə tətbiq edilən sosial yardım proqramlarının təhlili zamanı onların büdcəsinin bir hissəsinin səhv, saxtakarlıq və korrupsiya səbəbindən itirildiyini görmək mümkündür. Buna görə də proqramların tətbiqində instusional islahatların tətbiq edilməsi ilə saxtakarlıq və korrupsiya halları aradan qaldırıla bilər. Burada məmur vətəndaş münasibətlərinin minimuma endirilməsi üçün sistemin tamamilə elektronlaşdırılması, bu sahədə çalışan sosial müfəttişlərin iqtisadi şəraitə uyğun əməkhaqqı ilə təmin edilməsi və ciddi nəzarət mexanizmlərinin tətbiqi təklif oluna bilər.

***Vahid sosial qayğı sisteminin formalaşdırılması və ya sosial təhlükəsizlik şəbəkələrinin yaradılması***. Əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi, onların yoxsulluq risklərindən maksimal qorunması, sosial təminatın əhatəliliyinin və

ünvanlılığının artırılması, həssas qruplardan olan insanların sosial təminat sisteminə tam inteqrasiyasını təmin etmək baxımından respublikamızda vahid sosial qayğı sisteminin tətbiq edilməsi zərurəti yaranmışdır. Bu sistemin yaradılması üçün ilk növbədə həssas qruplardan olan insanların məşğulluqlarının təmin edilməsi məqsədilə əmək bazarı proqramlarının stimullaşdırılması, müavinət və yardım proqramlarının vahid sistem formasında tətbiqi, aztəminatlı ailələrin tam və ya qismən əmək qabiliyyətli üzvlərinin layiqli məşğulluqlarının təmin edilməsi, aztəminatlı ailələrin maddi yardımdan başqa natural yaxud konkret ehtiyacları müəyyən edilməklə, bu ehtiyacların qarşılanması üçün mexanizmlərin hazırlanması, aztəminatlı ailələrin ehtiyacı olan üzvlərinə səhiyyə, təhsil və s xidmətlərin dövlət hesabına ödənilməsinin təmin edilməsi əsas siyasət kimi qiymətləndirilə bilər.

Tədqiqatda da qeyd edildiyi kimi son dövrlər sosial müavinətlər sisteminin təkmilləşdirilməsi üçün bir sıra islahatların həyata keçirilməsi sosial siyasətin əsas istiqamətləri kimi müəyyənləşdirilmişdir. Sosial müavinətlər sisteminin müasir çağırışlara cavab verən təkmil sistem kimi formalaşdırılması üçün bəzi təklifləri nəzərdən keçirmək olar.

***Sosial müavinətlər sisteminin unifikasiyası və məbləğlərinin artırılması***. Hal-hazırda respublikamızda 35-dən çox növdə sosial müavinət və 8 növ təqaüd mövcuddur. Sosial müavinətlərin verilməsində ünvanlılığın təmin edilməsi sahəsində müəyyən çatışmazlıqlar hələ də qalmaqdadır. Bunun qarşısını almaq üçün bəzi növ müavinətlərin təyin edilməsi şərtlərində müəyyən meyarların tətbiqi zəruridir. Belə ki, məcburi köçkünlərə yemək xərci üçün eyni zamanda kommunal, nəqliyyat və digər xidmətlərə görə dövlət büdcəsindən ayrılan aylıq müavinətlərin təyin edilməsi məsələsinə yenidən baxılması və ünvanlılığın təmin edilməsi və bu növ müavinətin aztəminatlı məcburi köçkünlərə verilməsi üçün qanunda müəyyən dəyişikliklərin edilməsi təklif olunur.

***Çoxuşaqlı ailələrə verilən müavinət sisteminin qurulması***. Son 10 ildə ölkədə makroiqtisadi göstəricilərin dinamikasında müşahidə olunan dayanıqlı artım templəri respublikada sosial yönümlü iqtisadi inkişafı təmin etmiş, əhalinin həyat səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin yaradılması və məşğulluğun artırılması, eyni zamanda, əsas demoqrafik göstəricilərdə müsbət dəyişikliklərin baş verməsi üçün əlverişli şərait yaratmışdır. Bu istiqamətdə çoxuşaqlı ailələrdə

üçüncü, dördüncü və hər sonrakı uşağın doğulmasına görə uşaqlar üçün yaşayış minimumunun müəyyən misli məbləğində birdəfəlik müavinətin təyin edilməsi, çoxuşaqlı ailələrin qida məhsulları və sənaye malları ilə güzəştli təmin edilməsi üçün aylıq formada müavinətlərin tətbiqi və ailə kapitalının tətbiqi təklif olunur.

Dissertasiya işində son istiqamət kimi respublikamızda pensiya sisteminin təhlili nəzərdən keçirilmiş və bir sıra islahatların keçirilməsi zərurəti olduğu müəyyən edilmişdir. Bu islahatların əsas məqsədi pensiya təminatı sistemində sığorta prinsiplərinin gücləndirilməsi, qazanılan pensiya hüquqları ilə toplanan sığorta vəsaitləri arasında balansın qorunması, sığorta prinsiplərinə uyğun olmayan ödəmə yükünün tamamilə azaldılması və pensiya sisteminin əsas risklərdən qorunması üçün uzunmüddətli dövr üçün maliyyə dayanıqlığının təmin edilməsi kimi məsələlərdən ibarət olmalıdır. Məhz buna görə də respublikamızda mövcud pensiya və sosial sığorta sisteminin müxtəlif iqtisadi və sosial risklərdən qorunması və davamlılığının təmin edilməsi məqsədilə bir sıra təkmilləşdirmələrin aparılması zərurəti aktual olaraq qalır. Aparılan təhlillər pensiya və sosial sığorta sistemində aşağıdakı qeyd etdiyimiz bir sıra istiqamətlərdə təkmilləşmələr aparılması təklif edilir.

***Uzunmüddətli dövrdə maliyyə dayanıqlığının təmin edilməsi.*** Doğulanda gözlənilən orta ömür müddətinin artırılması bütün ölkələrdə həyat səviyyəsinin müəyyən edilməsi üçün əsas amillərdən biri sayılır. Bu göstərici eyni zamanda İnsan inkişafı indeksinin əsas göstəricilərindən biri kimi istifadə olunur. Lakin bu göstəricinin ildən-ilə yaxşılaşması pensiya təminatı sisteminin maliyyə dayanıqlığı və ödəniş sisteminin davamlılığını çətinləşdirir. Buna görə də gələcəkdə respublikamızın bu kimi çətinliklərlə qarşılaşmaması üçün sistemin maliyyə dayanıqlığı cari, orta müddətli və uzunmüddətli dövrdə təmin edilməlidir. Respublikamızda orta ömür müddətinin və yaşlanmanın cari vəziyyətinə nəzər salsaq məsələnin kifayət qədər ciddi olduğunu və gələcəkdə büdcə üçün fiskal yük daşıyacağını müəyyən etmək mümkündür. Respublikamızda orta ömür uzunluğu 1990-cı illə müqayisədə 2014-cü ildə ümumi əhali üçün 74,2, kişilər üçün 71.6, qadınlar üçün 76.8 yaşdır. Hazırda Azərbaycanın əhalisi qocalma ərəfəsində olan hesab edilir. Maliyyə dayanıqlığının təmin edilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik. Burada pensiya ödənişləri zamanı tətbiq edilən

annuitet faktorlarının gözlənilən ömür uzunluğu ilə əlaqələndirilməsi, sosial sığorta yığımlarının əhatə dairəsinin genişləndirilməsi, pensiyaya erkən, imtiyazlı və xüsusi formada çıxma şərtlərinin ağırlaşdırılması kimi tədbirlər nəzərdə tutulur.

***Özəl pensiya fondlarının yaradılması*** Bir çox ölkələrdən fərqli olaraq, ölkəmizdə qeyri-dövlət pensiya sisteminin sosial sığorta sisteminin əvəzləyicisi deyil, onun tamamlayıcısı funksiyasını yerinə yetirməsi daha məqsədəuyğun olardı. Bu sistemin köməyi ilə dövlətin üzərinə düşən sosial məsuliyyət yükünün azaldılması ilə yanaşı, fərdlərə öz yığımlarını bazar şərtləri daxilində səmərəli dəyərləndirmək imkanı yaradacaqdır. Yeni yaradılacaq sistemə daxil olmaq və sistemdən ayrılmağın könüllülük və ya icbarilik prinsipi əsasında qurulması təklif oluna bilər.

Ümumilikdə sosial təminat sisteminin təkmilləşdirilməsi və müasir çağırışlara cavab verən sistemin formalaşdırılması üçün aşağıdakı tədbirlərin görülməsi təklif olunur.

- Son illərin sosial iqtisadi göstəricilərinin yüksələn xətlə inkişaf etməsi və yoxsulluq həddinin region ölkələri ilə müqayisədə ən minimal həddə çatması və bu məqsədlə də passiv yardım sisteminin yeni çağırışlara cavab verən aktiv əmək bazarı proqramları ilə əvəzlənməsi;
- Yoxsulluq riskinin yüksək olması nəzərə alınaraq aztəminatlı qrupların sosial müdafiəsinin təmin edilməsi məqsədilə sosial təhlükəsizlik şəbəkəsinin yaradılması;
- Respublikamızda sosial yardım proqramlarında vətəndaş - məmur münasibətlərinin minimumuma endirilməsi, korrupsiya və saxtakarlıq hallarının aradan qaldırılması, sosial yardım proqramlarında səmərəliliyin və ünvanlılığın artırılması və bu kimi inzibati süründürməçilik hallarının aradan qaldırılması və sistemin ümumilikdə səmərəli fəaliyyətinin müasir standartlarla qurulması üçün inzibati islahatların aparılması;
- Respublikamızın müasir inkişaf mərhələsində ünvanlılıq prinsipi əsas götürülməklə insanların sosial təminatının gücləndirilməsi və onların zəruri yaşayış standartları ilə təmin edilməsi istiqamətində təkmilləşdirmə işlərinin aparılması;
- Minimum istehlak səbəti və ya yaşayış minimumu müəyyənləşdirilən zaman əlillik dərəcələrinin nəzərə alınması, bu qrup

insanlar üçün xüsusi istehlak səbətinin müəyyənləşdirilməsi;

- Büdcə məhdudiyyətləri nəzərə alınmaqla, bəzi növ sosial müavinətlərin təyin edilməsi şərtlərinin dəqiqləşdirilməsi;
- Çoxuşaqlı ailələrə verilən müavinət sisteminin qurulmasına dair tədbirlərin görülməsi;
- Uzunmüddətli dövr üçün pensiya sisteminin maliyyə dayanıqlığının artırılması üçün tədbirlərin görülməsi;
- Pensiya ödənişləri zamanı tətbiq edilən annuitet faktorlarının gözlənilən ömür uzunluğu ilə əlaqələndirilməsi;
- Sosial sığorta yığımlarının əhatə dairəsinin genişləndirilməsi,
- Ölkədə pensiya təminat sisteminin təkmilləşdirilməsi, xüsusilə, özəl pensiya fondlarının yaradılması istiqamətində metodoloji və praktik işlərin aparılması və s.

Dissertasiya işinin sonunda aparılan tədqiqat işinin nəticələri ümumiləşdirilərək müvafiq tövsiyə və təkliflər verilmişdir.

Dissertasiya işinin əsas müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:

1. Makroiqtisadi göstəricilərin iqtisadi inkişafda rolu. Empirik araşdırma Sosial Elmlər Jurnalı, 2011-ci il, mart. Türkiyə Respublikası.
2. Bəzi sosial-iqtisadi göstəricilərin hesablanma metodologiyası. İpək Yolu elmi jurnalı. Bakı, 2011, II Buraxılış.
3. Sosial təhlükəsizlik şəbəkələri və onların maliyyələşmə mənbələri İqtisad Elmləri: Nəzəriyyə və Praktika – Elmi Jurnal. 2011 (1) Azərbaycan Dövlət İqtisad Universiteti.
4. İqtisadi tətqiqatlarda bəzi ekonometrik üsullar: Regressiya təhlili və panel üsulu. Azərbaycanın Vergi xəbərləri jurnalı 2012-ci il, IV buraxılış.
5. Davamlı inkişafın sosial-iqtisadi parametrləri. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri Jurnalı, 2012-ci il, II buraxılış.
6. Aktiv Sosial Yardım Siyasəti:Özünəməşğulluqla əmək bazarına inteqrasiya. Beynəlxalq Hüquq və İnteqrasiya Problemləri Jurnalı. 2012-ci il, 2(30). BDU-2013
7. Azərbaycanda sosial təminat sisteminin təkmilləşdirilməsində beynəlxalq konvensiyaların rolu. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri Jurnalı, 2013 (3).
8. Özünəməşğulluqla əmək bazarına keçid. Ümummilli Lider H. Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi Konfransın materialları. BDU -.2013.
9. Social Assistance Strategies in Poverty Alleviation: In the case of Azerbaijan.The journal of economic theory.Yekaterinburg-Russia 2014 (1).
10. Çoxuşaqlı ailələrə verilən müavinət sistemləri. Bakı Dövlət

Universiteti. Elmi konfransın materialları-2013.

11. Sosial təminatın iqtisadi və hüquqi aspektləri Beynəlxalq Hüquq və İnteqrasiya Problemləri Jurnalı. BDU-2014, 2(38).

12. Sosial müavinətlərin həssas qrupların sosial təminatında rolu :beynəlxalq təcrübə. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri Jurnalı, ADİU-2014 (3).

13. Azərbaycanda sosial yardım sisteminin mövcud vəziyyətinin tədqiqi və qiymətləndirilməsi. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri Jurnalı, (çap mərhələsində)

14. Azərbaycanda aparılan həyat səviyyəsi və sosial təminat siyasətinin qiymətləndirilməsi Beynəlxalq Hüquq və İnteqrasiya Problemləri Jurnalı. (çap mərhələsində)

15. Azərbaycanda sosial təminata təsir edən bəzi faktorların qiymətləndirilməsi. İqtisadiyyatın davamlı inkişaf problemləri üzrə keçirilən beynəlxalq elmi konfransın materialları. II hissə. Sumqayıt Dövlət Universiteti. Sumqayıt -2016.



# РЕЗЮМЕ

**Гусейнов Гусейн Амрах оглы**

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы диссертации, характеризуется степень изученности проблемы, ставятся цель и задачи, раскрывается научная новизна исследования, обосновывается практическая значимость работы, а также отражаются сведения об апробации результатов исследования и их внедрении.

В главе I под названием «Научно-методологические основы совершенствования системы социального обеспечения» проведен сравнительный анализ исторических этапов развития формирования системы социального обеспечения, теоретико- методологических и правовых аспектов, а также наряду с изучением научных подходов различных ученых был проведен анализ систем социального обеспечения разных стран

В главе II под названием «Изучение и оценка системы социального обеспечения в Азербайджане» анализируются покАзатели уровня жизни и основные направления политики социального обеспечения, в том числе социальной помощи, пособий и нынешнего состояния пенсионной системы в целом.

В главе III под названием «Тенденции и развитие системы социального обеспечения в Азербайджане» выдвинуты предложения по обеспечению устойчивости системы социальной помощи, пособий и пенсий, а также формирования и развития системы социального обеспечения. в контексте нынешных реалий.

В заключительной части диссертации сформулированы выводы, предложения и рекомендации, имеющие научное и практическое значение.

## Summary

**Huseynov Huseyn Amrah**

## Direction of the improvement of social security system

The dissertation consist of introduction, three main chapters, conclusion and policy implications and the bibiliography. İn an introction part the paper introduce the importance of the problem, aims and objectives, scientific novelty of the investigation, the practical importance of the work and literature review and important scientific research done by the different scientist.

The first chapted namely “Scientific and methedological aspects of the improvement of social security system” comparatively investigated historical aspects of the formulation of social security system, theoritical-methedological, legislative and economic aspects of social security system, international experiance, and different scientific views.

The second chapter of the paper namely “Evaluation of the current situation of social security system in Azerbaijan” analysed cost of leaving and social protection policies, current situation of social assistance, benefits and pensions system.In this chapter different pillars of the system investigated by using econometric tools and given some regression tables for comparation.

Last chapter which called “Direction of the improvement of social security system in Azerbaijan Republic” investigated and gave policy implications on social assystance, benefits and pension system sustainability. The final part of the paper consists of conclusion, suggestions and recommendations concerning scientific and practical significance.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 086, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

------------------------------------------------------------------------

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

==========================================

*На правах рукописи*

**Гусейнов Гусейн Амрах оглы**

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ

**5308.01 – «Общая экономика»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Гянджа - 2016**